**Mühasibat**

# «Kassa qalığı» anlayışı və nağd pulların hesabatlarda təsviri

Qulu Soltanov,
sərbəst auditor

Müəssisənin fəaliyyəti boyu daxil olan nağd pul vəsaitləri kassada toplanır və oradan da məxaric olunur. Mühasiblər isə kassada hər hansı əməliyyat baş verdiyi halda, kassaya pul vəsaitlərinin daxil olması və xərclənməsi qaydalarını tənzimləyən normativ hüquqi aktlar barədə düşünürlər ki, müvafiq sənədləşmələri qanunauyğun həyata keçirsinlər.

«Kassa qalığı» deyilən bir anlayış vardır ki, mühasiblərin əksəriyyəti həmin qalığı böyük məbləğdə saxlamaqdan çəkinirlər, yaxud da heç saxlamaq istəmirlər. Mühasiblər bunun səbəbini yoxlama orqanları tərəfindən sorğuların olması və Azərbaycan Respublikası Mərkəzi Bankının İdarə Heyətinin 6 aprel 1993-cü il tarixli qərarı ilə təsdiq edilmiş «Xalq təsərrüfatında kassa əməliyyatlarının aparılması Qaydaları»nın tələbi ilə izah edirlər. Məlumdur ki, Azərbaycan Respublikası Mərkəzi Bankının qəbul etdiyi normativ xarakterli aktların reyestri məlumatlarına görə həmin «Xalq təsərrüfatında kassa əməliyyatlarının aparılması Qaydaları» hüquqi əhəmiyyətini itirdiyindən reyestrdən çıxarılmışdır.

Bəzən mühasiblər bilmədən göstərilən Qaydaların tələbinə əsaslanaraq ayın sonuna kassada qalıq saxlanılmaması məqsədilə ayın sonuna qalan bütün kassa qalığını təhtəlhesab şəxsə verirlər. Bəzən də təsisçilərlə hesablaşmalar hesabının debetinə (DB75) yazılış etməklə kassa qalığını məxaric etməyə üstünlük verirlər, yəni öz rəhbərlərinə bu cür məsləhət görürlər. Onlar güman edirlər ki, təhtəlhesab şəxsin və ya təsisçinin debitor borcunun yaranmasına görə narahatçılıq yarana bilməz, əsas odur ki, kassada pul qalığı olmasın.

Mühasiblərin belə güman etməsinə şərait yaradan bir məqam da vardır. Vergi orqanına təqdim olunan mənfəət vergisinin və ya sadələşdirilmiş verginin bəyannaməsinə $1^1$-li əlavənin «aktivlər» barədə məlumatlarında konkret olaraq təhtəlhesab şəxsin debitor borclarının «digər aktivlər» sətrində göstərilməsi nəzərdə tutulmuşdur. Yəni vergi orqanı təhtəlhesab şəxsin debitor borcu barədə açıqlanmış məlumatı əlavələrdən tam aydın ala bilmir. Əgər dövlət büdcəsinə vergi borcu olan müəssisənin nağd pulunun təhtəlhesab şəxsdə saxlanılması faktını vergi orqanına verilən məlumatlardan (bəyannaməyə əlavələrdən) əldə etmək mümkün deyildirsə və eyni zamanda əlavələrdə pul vəsaitlərinin qalığının göstərilməməsi vergi orqanları əməkdaşlarında vergi ödəyicisində həqiqətən pul vəsaitinin olmaması fikrini formalaşdırır.

Müəssisənin səlahiyyətində olan nağd pullar iki yerdə - iki formada saxlanıla bilər. 1-ci kassada, yəni müəssisənin ofisində (seyfdə, otaqdakı şkafda və s.), 2-ci isə şəxsən kassirin özündə, rəhbərdə və ya müəssisənin digər işçisində (öz evində, qohumunun evində və s.). Sual oluna bilər ki, xüsusi mülkiyyət növünə malik müəssisənin rəhbəri müəssisəyə məxsus olan nağd pul vəsaitinin təhtəlhesab şəxsdə saxlanılması, hətta uzun (1 ay, 3 ay və daha çox) müddət saxlanılması qərarını verərsə, bu hal qanun pozuntusu kimi əsaslandırıla bilərmi? Bu cür halların kiçik sahibkarlıq subyektlərində (sadələşdirilmiş vergi ödəyicisi olan hüquqi şəxslərdə) daha çox baş verməsi həmin müəssisələrin audit (vergi və sosial sığorta) yoxlamaları vaxtı müfəttişlər tərəfindən uçotun tələblərinin pozulması kimi qiymətləndirilir. Yoxlama orqanları bu məsələdə haqlıdırlar. Çünki hazırda qüvvədə olan Azərbaycan Respublikasının Maliyyə Nazirliyi tərəfindən İ-06 nömrəli, 13 yanvar 2009-cu il tarixdə təsdiqlənmiş və Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi tərəfindən 30 yanvar 2009-cu il tarixdə dövlət qeydiyyatına alınmış «Kiçik sahibkarlıq subyektlərində sadələşdirilmiş uçotun aparılması Qaydaları»na görə $71^1$-li «Təhtəlhesab şəxslərlə hesablaşmalar» hesabı işçilərə inzibati-təsərrüfat və əməliyyat, habelə ezamiyyə xərcləri üçün təhtəlhesaba verilmiş məbləğlər üzrə hesablaşmalar haqqında məlumatları ümumiləşdirmək üçün nəzərdə tutulmuşdur. Göründüyü kimi, təhtəlhesab şəxsə yalnız inzibati-təsərrüfat məqsədlərinə lazım olan malların (məsələn, dəftərxana ləvazimatlarının) alınması üçün pul verilə bilər, başqa, yəni əsas istehsal, birbaşa məhsul istehsalına lazım olan malların, yəni xammal və materialların, maşın və avadanlıqların alınması ilə bağlı, həmçinin pulun saxlanılması üçün müəssisənin işçisinə

verilən nağd pullarla bağlı əməliyyatların uçotu təhtəlhesab əməliyyatlar hesab edilmədiyinə görə $71^1$-li hesabda aparıla bilməz.

davamı növbəti sayımızda